**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# EMİ TAN YARADICILIĞINDA
# MİLLİ-MƏDƏNİ KİMLİK AXTARIŞLARI

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Nigar Rauf qızı Əsgərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, dosent<br>**Həmidə Əhməd qızı Əliyeva** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Nigar Vəliş qızı İsgəndərova** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Fəxriyyə Cavanşir qızı Rəhimova** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Mənsurə Tiflis qızı Ağayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədri: | ____________ | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi: | ____________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri: | ____________ | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Multikulturalizm mahiyyəti etibarilə toplumun və mədəniyyətin tolerant mühitdə birgəmövcudluğu və inkişafını təmin etməklə həmin mədəniyyətlərin qarşılıqlı yararlanması, müştərək təşəkkül və təkamülünü mümkün edir. Məlumdur ki, müasir elmi ədəbiyyatlarda "mədəni çoxrənglilik", "mədəni plüralizm" kimi terminlərlə tanınan multikulturalizm anlayışı[1] özündə birgəmövcudluq və çoxmədəniyyətlilik anlayışını ehtiva etməklə, istənilən fərdə öz milli-mədəni kimliyinin etiraf edilməsinin azadlığını verir, eləcə də onu həmin multikultural toplumun bərabərhüquqlu üzvü kimi qəbul edir. Dövlət başçısı, prezident İlham Əliyevin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumun açılışında söylədiyi nitqində deyildiyi kimi *"Biz istəyirik ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsunlar, bütün problemləri açıq şəkildə müzakirə etsinlər, öz fikirlərini bildirsinlər... Çünki əsrlər boyu Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar"*[2].

Şübhəsiz, multikulturalizm ideyalarının vüsət alması demokratik prinsiplərə riayət edən, tolerantlığı əsas götürən toplumların milli ədəbiyyatlarına da dərin təsir göstərmişdir. Bu təsir özünü fərqli mədəniyyətlərə qarşı tolerantlıqda, "özgə" mədəniyyətin "yerli" mədəniyyətlə qarşılıqlı əlaqəsində və onunla qaynayıb qarışmasında öz əksini tapır. Belə mədəniyyət daşıyıcılarından biri də yaradıcılığında multikultural dəyərləri əsas tutan, milli-mədəni kimlik problemlərindən bəhs edən, ABŞ ədəbiyyatında xüsusi yeri olan yazıçı Emi Tandır (Amy Tan, 1952). Yazıçı "Sevinc və kədər klubu" (1989), "Mətbəx allahının arvadı" (1991), "Yüz sirli hiss" (1995), "Sınıqçının qızı" (2001) və "Möcüzələr vadisi" (2013) əsərlərində milli-mədəni kimlik ideyalarından söz açır, Amerikada yaşayan çinlilərin ekzistensial problemlərindən bəhs edir, iki dünya

---

[1] American Identities. Contemporary Multicultural Voices. / Ed.Pack, R.; Parini, J. Middlebury College Press, – 1994. – p.25.

[2] Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumun açılış mərasimində İlham Əliyevin nitqi: [Elektron resurs]. URL: https://president.az/az/articles/view/1849

düzəni arasında qalan mühacir həyatını işıqlandırır. Emi Tan fərqli mədəniyyətlərin birgəmövcudluğunu konkret fərdlərin həyat faciələrində, daxili sarsıntı və mənəvi-ruhi təlatümlərinin təhlili müstəvisində təsvir edir. Belə yanaşma tərzi onu müasiri olduğu digər yazıçılar Maksin Honq Kinqston, Cessika Hecedorn, Devid Vonq Lui və Lan Kao yaradıcılığına yaxınlaşdırır. Da Cenq tam doğru olaraq qeyd edir ki, Çin əsilli Amerika yazıçılarının yaradıcılığı çinli amerikalıların kimlik problemi ilə bağlıdır[3]. Emi Tan da əsərlərində milli-mədəni kimlik problemini multikultural dəyərlərə riayət edən, yeni dünya düzəninə öz ənənəvi mədəniyyətini də əlavə edib yaşayan fərdlərin həyat hekayələrində təsvir edir.

Asiya-Amerika yazıçıları bədii ədəbiyyatda öz milli-mədəni kimliyini təsvir etməklə onun formalaşmasına şərait yaradır [4] deyən Harold Blum Emi Tan yaradıcılığını ABŞ ədəbiyyatının yeni mərhələsi kimi dəyərləndirir, onun əsərlərini geniş oxucu auditoriyasına tövsiyə edirdi. Qərb ədəbiyyatşünaslığında kifayət qədər öyrənilən və tədqiq edilən E.Tan yaradıcılığı ilə bağlı müxtəlif aspektlərdə monoqrafiyalar, dərslik və dərs vəsaitləri yazılmış, çoxsaylı məqalələr ictimaiyyətin müzakirəsinə verilmişdir. Yazıçının yaradıcılığı ilə bağlı ABŞ, Kanada, Avropa və Rusiyada araşdırmalar aparılmış, elmi əsərlər nəşr edilmişdir.

Ölkəmizdə multikultural toplumunun varlığını nəzərə alaraq qeyd etməliyik ki, E.Tan yaradıcılığında qaldırılan problemlər Azərbaycan oxucusuna da yad deyil. Onu da qeyd edək ki, Qərb ədəbiyyatında xüsusi yeri olan E.Tan yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi Azərbaycan oxucusu üçün xüsusi aktuallıq kəsb edir. Ədəbiyyatşünaslığımızda G.Əbdürrəhmanovanın "Böyük Britaniya ədəbiyyatında milli tarixin identifikasiya konsepsiyası (Valter Skottun tarixi romanları əsasında)"[5],

---

[3] Zheng, D. From the Margin to the Mainstream. Asian American Literature Since the Late 1970s // In Search of New Identities and Designs: American Literature in the 1980 – 90s. / Ed. by Stulov Y.V. Minsk, – 2001. – 31 p.

[4] Asian-American Writers. / Ed. by Bloom H. Publisher: Chelsea House Publications. – 2009. – 47 p.

[5] Əbdürrəhmanova, G. Böyük Britaniya ədəbiyyatında milli tarixin identifikasiya konsepsiyası (Valter Skottun tarixi romanları əsasında): /filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2015. – 28 s.

G.Cənnətovanın "İngilisdilli yəhudi ədəbiyyatı II Dünya müharibəsindən sonrakı Amerika ədəbiyyatı kontekstində"[6], L.Pənahovanın "XX əsr Böyük Britaniya postkolonial ədəbiyyatında multikulturalizm"[7], M.Hacıyevanın "Müasir ingilisdilli Pakistan ədəbiyyatında multikulturalizm və milli mənsubiyyət problemi"[8] kimi yaxın mövzular araşdırma obyektinə çevrilsə də, Emi Tanın yaradıcılığında milli-mədəni kimlik problemi indiyə qədər tədqiq edilməmişdir.

Bu baxımdan Emi Tan yaradıcılığında milli-mədəni kimlik probleminin öyrənilməsi multikulturalizm tarixinə malik olan ölkəmizin elmi ictimaiyyəti üçün əhəmiyyət kəsb etməsi danılmaz faktlardandır. Emi Tan yaradıcılığının araşdırılması multikultural ideyaların mənimsənilib təhlil və tədrisi baxımından da ölkə ədəbiyyatşünaslığında əhəmiyyət kəsb edir. Bu, həmçinin ona əsas verir ki, ölkəmizdəki multikultural dəyərlərin əsası – birgəmövcudluq, çoxmədəniyyətlilik və tolerantlıq prinsiplərinin reallaşması olan dövlət siyasəti Emi Tan qəhrəmanlarının da arzuladığı cəmiyyət modelidir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini Emi Tanın milli-mədəni kimlik axtarışları mövzusu ilə bağlı olan "Sevinc və uğur klubu", "Sınıqçının qızı", "Yüz sirli hiss", "Mətbəx allahının arvadı", "Möcüzələr vadisi" və s. romanları, predmetini isə yazıçının əsərlərində qaldırılan milli-mədəni kimlik məsələlərinin tədqiqi və bu tədqiqatdan əldə olunan nəticələrin sistemləşdirilərək ümumiləşdirilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Emi Tanın bədii yaradıcılığında milli-mədəni kimlik axtarışları mövzusunun öyrənilməsidir. Mövzu ilə əlaqədar aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

---

[6] Cənnətova, G. İngilisdilli yəhudi ədəbiyyatı II Dünya müharibəsindən sonrakı Amerika ədəbiyyatı kontekstində: / filologiya üzrə fəlsəfə dis. avtoreferatı. / – Bakı, 2017. – 32 s.

[7] Pənahova, L. XX əsr Böyük Britaniya postkolonial ədəbiyyatında multikulturalizm: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2017. – 28 s.

[8] Hacıyeva, M. Müasir ingilisdilli Pakistan ədəbiyyatında multikulturalizm və milli mənsubiyyət problemi: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2017. – 28 s.

– Multikultural ədəbiyyatda milli-mədəni kimlik mövzusunun dəyərləndirilməsi;

– Amerika ədəbiyyatında milli kimliyin və milli şüurun yaranması məsələlərinin ümumiləşdirilməsi;

– E.Tan yaradıcılığında milli-mədəni kimlik probleminin ilkin araşdırılmasının təyin edilməsi;

– E.Tan yaradıcılığında şəxsiyyətin formalaşması məsələlərinin əsas konturlarının müəyyənləşdirilməsi;

– E.Tan yaradıcılığında mədəni hibridləşmə və harmoniyaya qayıdış mövzusunda yazılan bədii-mətnlərin izah və şərhinin verilməsi;

– Milli-mədəni kimliyin E.Tan romanlarının ideya-məzmun və bədii-estetik xüsusiyyətləri kimi öyrənilməsi;

– "Mətbəx allahının arvadı" romanında milli kimlik və nəsillərarası problemlərin mifik süjetlə müqayisəli kontekstdə təhlil edilməsi;

– "Möcüzələr vadisi" romanında özünüdərk və kimlik məsələlərinin qadın taleyində bədii əksinin müəyyənləşdirilməsi;

– "Sevinc və uğur klubu" romanında analar və qızlar qarşıdurmasında milli-mədəni kimliyin təyin edilməsi;

– "Yüz sirli hiss" romanında "özününkü" və "özgə" dixotomiyasının çinli və amerikalı obrazında müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Tarixi-müqayisəli və təsviri-tipoloji təhlil metodlarının tətbiq olunduğu dissertasiya işi elmi-nəzəri və metodoloji prinsiplər əsasında hazırlanmışdır. Dissertasiyanın problemləri ilə bağlı Avropa, ABŞ və rus alimlərinin tədqiqatları ilə yanaşı, Azərbaycan ədəbiyyatşünaslığının da son nailiyyətlərindən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Multikultural ədəbiyyatda milli-mədəni kimlik mövzusu ardıcıl və davamlı xətt təşkil edir;

– Amerika ədəbiyyatında milli kimliyin yaranması kimi geniş məsələlər Asiya-Amerika yazıçılarının yaradıcılığının bədii-estetik qayəsi, ideya-məzmunu və problematikasını müəyyən edir;

– E.Tan yaradıcılığında milli-mədəni kimliyin ilkin araşdırılmasına polemik münasibətlər açıqlanır;

– E.Tan yaradıcılığında şəxsiyyətin formalaşması prosesi romanlarının əsasını təşkil edir;

– Milli-mədəni kimlik E.Tan yaradıcılığının ideya-məzmun və bədii-estetik xüsusiyyətlərinin əsas platformasını müəyyən edir;

– Hibridləşmə və harmoniyaya qayıdış mövzusu E.Tan romanlarında mühüm əhəmiyyət kəsb edir;

– "Mətbəx allahının arvadı" romanında qaldırılan milli-mədəni kimlik problemi mifik süjetlə səslənir və dövrün ictimai gerçəkliyini əks edir;

– "Möcüzələr vadisi", "Sevinc və uğur klubu" romanlarında qadınların faciəvi taleyi, analar və qızlar problemi E.Tan qəhrəmanların mənəvi keyfiyyətlərinə təsir edir, milli kimlik mücadiləsinə təkan verir;

– "Yüz sirli hiss" romanında "özününkü" və "özgə" dixotomiyasının çinli və amerikalı obrazlarında mahiyyəti açıqlanır, yazıçının yeni insan konsepsiyası kimi müəyyən edilir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim edilən dissertasiya işində Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Emi Tanın yaradıcılığında milli-mədəni kimlik problemi öyrənilmişdir. O da qeyd edilməlidir ki, Emi Tan yaradıcılığı heç bir şəkildə nə monoqrafiya, nə də dissertasiyaların araşdırma obyekti olmamışdır. Elə bununla bağlı Emi Tan yaradıcılığında milli-mədəni kimlik probleminin öyrənilməsi bir neçə əsas istiqaməti birləşdirir. Birinci, milli kimlik məsələlərinin ABŞ ədəbiyyatında yaranma dövrü və şəraiti nəzərdən keçirilərək, Emi Tan yaradıcılığının özünəməxsusluğu üzə çıxarılır. İkinci, Emi Tanın romanlarında qaldırılan milli-mədəni kimlik axtarışlarının ədəbi-bədii təsviri ABŞ ədəbiyyatının milli-mədəni özəlliklərini ortaya qoyur və bu da öz növbəsində multikultural ədəbiyyatın mahiyyətinin açılmasına yardım edir. Üçüncü, yazıçının romanlarının tipoloji təhlili müəllifin yaradıcılığında şəxsiyyətin formalaşması və mədəni hibridləşmə prosesi ilə yanaşı onun əsərlərində şəxsiyyətin harmoniyaya qayıdışı məsələləri, milli kimlik və nəsillərarası münasibətlər mövzusunun araşdırılması da şübhəsiz, dissertasiya işinin elmi yeniliyi kimi dəyərləndirilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi ilə əlaqəli irəli sürülən elmi-nəzəri müddəalar, eləcə də E.Tanın

yaradıcılığı əsasında aparılan təhlillər ədəbiyyatda milli-mədəni kimliyin axtarışı ilə bağlı yeni tədqiqatların aparılmasında, xüsusilə Avropa, ABŞ, Azərbaycan ədəbiyyatında milli-mədəni kimlik və multikulturalizm mövzusunun daha geniş öyrənilməsində mənbə kimi istifadə edilə bilər. E.Tan yaradıcılığında milli-mədəni kimlik axtarışları mövzusundan həmçinin filoloji fakültələrdə tədris edilən seçmə fənlərdə, ədəbiyyatşünaslıq üzrə xüsusi seminarların tədrisində, elmi tədqiqat işlərinin yazılmasında da faydalanmaq olar.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin nəticələri Beynəlxalq və Respublika konfranslarındakı məruzələrdə öz əksini tapmış, konfransların materiallarından ibarət toplularda, eləcə də Respublikada və xarici ölkələrdə nəşr olunan elmi jurnallarda çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın giriş hissəsi 6 səhifə, 9597 işarə, I fəsil 37 səhifə, 72753 işarə, II fəsil 31 səhifə, 60858 işarə, III fəsil 31 səhifə, 60687 işarə, nəticə 3 səhifə, 5415 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 209310 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri təsbit edilir, tədqiqatın elmi yeniliyi, metodologiyası, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirir, müdafiəyə çıxarılan müddəalar, tədqiqat işinin aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **"Ədəbiyyatda milli-mədəni kimlik mövzusunun elmi-nəzəri mahiyyəti"** adlanan I fəslinin ***"Multikultural ədəbiyyatda milli-mədəni kimlik anlayışı və onun elmi-nəzəri əsasları"*** adlanan ilk paraqrafında milli-mədəni kimlik

probleminin sistemli təhlili təqdim edilir və onun nəzəri əsaslarına aydınlıq gətirilir.

Müasiri olduğumuz dövrdə multikulturalizm bir çox ölkələrdə inkişaf edir, bəzən isə dövlət proqramı kimi əsaslandırılır. Multikulturalizm fərqli mədəniyyətlərin və millətlərin birgə yaşaması, birgəmövcudluğunu ifadə edən tarixi-mədəni hadisədir. Lakin onu da qeyd etməliyik ki, ABŞ-də bu anlayış xüsusi məna kəsb edir. ABŞ-də dünyanın bütün qütblərində mövcud olan irqlər və etnik qruplar yaşayır. Görünür elə bu səbəbdən amerikan mədəniyyətində dini, etnik, irqi kimlik problemlərinə xüsusi həssaslıqla yanaşılır, bu problemləri yaradanlara cəza tətbiq edilir.

Keçən əsrin 50-60-cı illərindən başlayaraq multikulturalizm konsepsiyası yarandı və beləcə, amerikan gerçəkliyini özündə daha uyğun şəkildə əks etməyə iddialı oldu. Amerikan multikulturalizminin əsası etnik qrupların öz mədəni xüsusiyyətlərini vahid milli amerikan mədəniyyəti çərçivəsində qorumaq istəyi ilə bağlıdır. Amerikan multikulturalizminin xüsusiyyəti həmçinin etnik mənsubiyyətindən asılı olmayaraq bu ölkədə yaşayan yazıçıların ingilis dilində yazması idi. Onlar məhz ingilis dilində yazır və elə bu səbəbdən milli amerikan mədəniyyəti və ümummilli ABŞ ədəbiyyatını yaradır, eyni zamanda da öz etnik mədəni kodlarını qoruyub saxlayırlar.

İnsanın özünüdərk prosesi ilk növbədə onun kimliyi və digərlərindən fərqliliyi ilə seçilir. Bir qayda olaraq sosiologiyada belə bir bölgü var ki, kimlik anlayışı çoxplanlıdır, daha çox sosial və sinfi, etnik və dini, ideoloji və siyasi fərqliliklərlə bağlıdır. Çağdaş dövrümüzdə isə o daha çox mədəni kimlik anlayışı kimi qlobal mahiyyət daşıyır. Mədəni kimlik iki müxtəlif mədəniyyətlərin coğrafi yaxınlığı, ticari əlaqələri və ya “görüşü” nəticəsində önə çıxır və etnik müxtəlifliyi təhlükə qarşısında birləşdirən ən güclü vasitəyə çevrilir.

Kimlik anlayışı mürəkkəb struktura malik olan çoxşaxəli hadisədir və müxtəlif fərdi-psixoloji və sosial-mədəni funksiyalar daşıyır. Psixoloji mənada kimlik anlayışı fərdin özümlülüyü, dəyişkən sosial situasiyalarda özgürlüyünü qoruyub saxlaması, şəxsiyyətini dərk etməsi, digərindən fərqliliyi ilə seçilir. “Identity

crisis" konsepsiyasının müəllifi amerikalı psixoloq Erik Erikson kimliyin psixoloji şərhini üç vacib aspektlə işarələyir və birincini kimlik hissi, ikincini kimliyin formalaşma prosesi və üçüncünü kimlik nəticə kimi adlandırır[9]. Sosial planda isə fərdin kimliyi etnik, cinsi, dövlətdaxili icma ilə birgəmövcudluğunun dərki kimi meydana çıxır. İspan sosioloqu Manuel Kastelsinə görə kimliyi formalaşdıran bir neçə formalar mövcuddur. Bu ilk növbədə dominant sosial institutlara aid olan sosial mənsubiyyətli əlaqələr, yəni legitimləşdirilmiş kimlikdir.

"Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" ("The Clash of Civilizations and the Remaking of World Order") əsərinin müəllifi Samuel Hantinqton isə qloballaşma prosesi ilə bağlı yazır ki, Avropa, Asiya və Amerikanın böyük dövlətlərini kimlik böhranı bürüyüb və bu da öz növbəsində milli kimliyin fraqmentlərə bölünməsi ilə nəticələnib. Mühacir axını və sərhədlərin şəffaflığı ona görə milli dövlətlərin tərkibində başqa mədəniyyətlərin mövcudluğu, sivilizasiyaların toqquşması ilə nəticələnəcək. *"Xalqlar arasında qalan yeganə real fərq mədəni mənsubiyyətdir"*[10] deyən S.Hantinqton özünün "Biz kimik? Amerika milli kimliyinə çağırışlar" ("Who Are We? The Challenges to America's National Identity") traktatında bu problem barədə bəhs edərək amerikan kimliyinin mahiyyətindən danışır və bu problemlə bağlı mülahizələr irəli sürür.

Rəngarəng ABŞ əhalisi Afrikadan, Asiyadan, dünyanın istənilən ölkəsindən gələn, amerikan adı altında birləşən çoxsaylı millətlərdən ibarətdir. Çağdaş dövrdə xalqlar və millətlər bir tərəfdən bəşəriyyətin həyatında iştirak etmək, bunun üçün müvafiq dəyərlərə yiyələnmək, digər tərəfdən etnik və mədəni mövcudluğunu qoruyub saxlamaq, öz mədəni dəyərləri ilə digərlərindən fərqlənmək və bu şəkildə özünü qorumaq istəyirlər. Bu prosesdə milli-mədəni kimlik faktını dəyərləndirmək vacib şərtlərdən biri kimi önə çıxır. Beləliklə,

---

[9] Эриксон, Э. Детство и общество. пер. с англ. и науч. ред. А. А. Алексеева. – 2-е изд., перераб. и доп. – Санкт-Петербург: Летний сад, – 2000. – с.104-105

[10] Хантингтон, С. Кто мы? Вызовы американской национальной идентичности / пер. с англ. А. Башкирова. – М.: АСТ, Транзиткнига, – 2004. – 207 с.

görmək olur ki, multikultural ədəbiyyat müasir dünyada multikulturalizmin bir qolu olaraq milli-mədəni kimliyi ifadə edən fenomendir. Multikulturalizm insanların birgəmövcudluğunu ifadə edən, milli-mədəni kimliklərinin qorunmasına yönəlmiş mədəni durumdur. Görünür elə bu səbəbdən multikultural toplumda milli-mədəni kimlik anlayışı hər hansı bir əraziyə və mənşəyə bağlılığını itirir. O daha çox bu toplumda yaşayan müxtəlif xalqların birgəmövcudluğunu, bərabərhüquqlu yaşayışını təmin edir. Onun formalaşması və mövcudluğu dialoji xarakter daşıyır, o kimlikləri modelləşdirmək bacarığına malikdir və belə şərait çoxsaylı kimliklərin yaradılmasına gətirib çıxaracaq.

***"Amerika ədəbiyyatında milli-mədəni kimliyin və milli şüurun yaranması məsələləri"*** paraqrafında Çin-Amerika ədəbiyyatının qaynaqları öyrənilir və ABŞ-də yaşayan Çin əsilli yazıçıların ədəbi nümunələri təhlilə çəkilir.

Bir ədəbi istiqamət kimi XIX əsrin sonları yaransa da onun təşəkkül mərhələsi XX əsrin ortalarına təsadüf edir. Çin-Amerika ədəbiyyatı dedikdə, ilk öncə biz Suy Sin Far, Frenk Çin, Çin Yan Li, Maksin Honq Kinqston, Emi Tan yaradıcılığını nəzərdə tuturuq. Məhz onların yaradıcılığı sayəsində Qərb ədəbiyyatında Çin-Amerika ədəbiyyatı anlayışı öz yerini möhkəmlətdi və tanıtdı. Bu ədəbiyyat bir çox mövzuları əhatə etsə də ilk növbədə Amerikada yaşayan çinlilərdən, onların yeni dünya düzənində assimilyasiyasından bəhs edir. Çin-Amerika ədəbiyyatında ən çox yayılan ikinci mövzu Çindən gələn, ABŞ-də məskunlaşan, amma öz ölkəsinin xiffətini çəkən çinlilərdən bəhs edən mövzular, həmçinin, Amerikada doğulan yeni nəsil çinlinin milli kimliyinin axtarışları və nəsillərarası anlaşılmazlıqlarla bağlı mövzulardır.

XX əsr Çin-Amerika ədəbiyyatı ingilis dilində yazılan ədəbi nümunələr hesab edilir. Keçən əsrin əvvəlləri yaşayan və ingilis dilində yazan Suy Sin Far (Sui Sin Far, 1865-1914, əsl adı Edit İton) yaradıcılığı bu baxımdan əlamətdar hadisədir. Onun bütün əsərləri Kanada və ABŞ-də yaşayan çinli mühacirlərdən və bu torpaqda doğulan yeni nəsil çinlilərdən bəhs edir. İlk əsəri olan "Bahar ətirli xanım" ("Mrs. Spring Fragrance") sadə ailə tarixçələrindən bəhs

edən hekayələrdə mədəni assimilyasiya nəticəsində yaranan gərginliyi ortaya qoyur.

Çin – Amerika ədəbiyyatı Lin Yutanqın (Lin Yutang, 1895-1976) adı ilə bağlıdır. Onun keçən əsərin 30-cu illərində yazdığı “Mənim ölkəm və mənim xalqım” (“My Country and My People”, 1935) və “Yaşamanın önəmi” (“The Importance of Living”, 1937) əsərləri çinli amerikalıların Qərbə köçü və Qərb mədəniyyəti ilə qarşılıqlı inkişafından bəhs edir. Yazıçının Çin mədəniyyətinin ABŞ-də yayılmasında xüsusi xidmətləri var. Onun “Fırtınada yarpaq” (“A Leaf in the Storm”, 1941) Çin ilə Yaponiya arşında yaranan münaqişə nəticəsində ölkəsindən qaçıb ABŞ-də sığınacaq tapan, amma bütün ömrü boyu vətən həsrəti ilə yaşayan çinlidən bəhs edir. Ədəbi tənqid də “Fırtınada yarpaq” romanını multikulturalizmin ən gözəl nümunəsi hesab edir[11].

Çin əsilli dramaturq Frenk Çinin (Frank Chin, 1940) “Hindəki çinli” (“Chickencoop Chinaman”, 1971) pyesi asiyalı amerikalının ilk əsəri kimi əlamətdar hadisə hesab edilir. Pyes bu illərdə ən çox səhnələşdirilən əsər kimi ABŞ dramaturgiyasında xüsusi yerlərdən birini tutur. Frenk Çin dramaturgiya sahəsində olduğu kimi, ədəbiyyatşünaslıqda da öz sözünü demiş, ABŞ-də yaşayan asiyalı yazıçıların yaradıcılığının öyrənilməsində ən çox istinad edilən “Ayiiii! Asiya-Amerika yazıçılarının antologiyası” (“Aiiieeeee! An Anthology of Asian-American Writers”, 1974) kitabının müəllifidir.

ABŞ yazıçılarının yaradıcılığı timsalında onu deyə bilərik ki, ABŞ-də ədəbi proses həm etnik, həm də irqi müxtəliflikləri ilə seçilir. Bu sırada çinlilərlə təmsil olunan etnik ədəbiyyat – Çin-Amerika ədəbiyyatı xüsusi şəkildə fərqlənir. Amma onu da qeyd etməliyik ki, Çin əsilli yazıçılar artıq ədəbi prosesin periferiyasında deyil, çox vaxt milli ədəbiyyatdan kənara çıxaraq ABŞ ədəbi prosesini müəyyən edir, bəzən isə dünya səviyyəli yazıçılara çevrilir. Bizim təhlilə çəkdiyimiz Suy Sin Far, Frenk Çin, Şon Vonq və əsərlərinə xüsusi müraciət etdiyimiz Emi Tan yaradıcılığı da bu sırada yer alır. Etnik yazıçılar üçün kimlik anlayışı ona görə vacib şərt idi ki, onlar bir tərəfdən yazılarında öz şəxsiyyətini vurğulayır,

[11] Suoqia,o Q. Liberal Cosmopolitan. Lin Yutang and Middling Chinese Modernity // Ideas, History, and Modern China,– 2011. Vol. 3, – 48 p.

digər tərəfdən isə öz mədəni irsini nümayiş etdirirdilər. Sərhəd fenomeni olan qəhrəman bu halda özündə həm toplumun, həm də fərdin şüurunu birləşdirir, eyni zamanda şəxsiyyətin bütün qatlarını dərk etmək istəyini bildirir.

***“Emi Tan yaradıcılığında milli-mədəni kimlik probleminin ilkin araşdırılması vəziyyəti”*** adlanan üçüncü paraqrafda ABŞ ədəbi prosesinə bütün qüvvəsi ilə qoşulan Emi Tan yaradıcılığının ilkin araşdırılması mərhələsi öyrənilir.

Devid Leyvey Li (David Leiwei Li) “Millәti xəyal etmək: Asiya-Amerika ədəbiyyatı və mədəni razılıq” (“Imagining the Nation: Asian American Literature and Cultural Consent”) əsərində Asiya-Amerika ədəbiyyatı ilə bağlı milli-etnik mərhələni keçən əsrin 60-90-cı illəri ilə bağlayır və qeyd edir ki, bu ədəbiyyatın 80-cı illərdə feminist mərhələsi Emi Tan yaradıcılığı ilə əlaqəlidir.

Asiya-Amerika ədəbiyyatının görünməmiş çiçəklənməsi Emi Tanın “Sevinc və uğur klubu” romanından sonra başladı və məhz bu əsərlə o “etnik və ədəbi gettodan qurtuldu”[12]. Emi Tanın gətirdiyi ədəbi təhkiyə üsulları amerikalı oxucuya o qədər maraqlı gəldi ki, yazıçının nədən yazması deyil, necə yazması, “təsvir etdiyi hadisələr”[13] önəmli oldu.

Emi Tan bir qayda olaraq Amerikada yaşayan Çin əsilli qadınlardan yazır, onların iç dünyasını milli kimlik və özümlülük kontekstində təqdim edir. Çin mədəniyyəti onun romanlarının göstəricisi olsa da o, etnik çərçivələrdən çıxa bilir, hadisələri amerikalı çinlilərin həyat tərzində, həyata baxışlarında və öz müqəddəratının həlli yolları ilə bağlayırdı. Görünür bu səbəbdən müasir ədəbi tənqid, xüsusilə, Edelma Hantli öz tədqiqat işində Amerika-Çin ədəbiyyatının “etnik işarələrdən”[14] xilas olmasının yetişdiyini səsləndirmişdir.

“Emi Tanın romanlarında müəlliflik və yazılı söz” (Authorship and the Written Word in Amy Tans Novels) və “Tanın kontekstində

---

[12] Zia, H. Asian American Dreams: The Emergence of an American People. Pub: Farrar, Straus and Giroux. – 2001. – 38 p.
[13] Yenə orada. – p.41.
[14] Huntley, E.D. Amy Tan: A Critical Companion. Westport, Connecticut: Greenwood Press, – 1998. – p.14.

Çin rəvayətlərinin semiotikası" (The Semiotics of China Narratives in the Context of Tan) tədqiqatında Harold Blum Emi Tanın roman yaradıcılığını öyrənir və belə qənaətə gəlir ki, yazıçının romanları etnik problemlərdən kənarda öyrənilməlidir. Ədəbiyyatşünas alim yazır ki, Emi Tanın yaradıcılığında çinli-amerikalı əlamətlərinin süni şəkildə birləşdirilməsi ədəbiyyatda yeni transmədəni hadisələrin mahiyyətini aça bilməz[15].

Son illər Azərbaycan ədəbiyyatşünaslığında Asiya-Amerika ədəbiyyatı ilə bağlı az da olsa məqalə və müzakirə materialları dərc olunsa da, Amerika ədəbiyyatının aparıcı istiqamətlərindən olan Amerika-Çin ədəbi nümunələrinin öyrənilməsi yox dərəcəsindədir. Təəssüflə qeyd etməliyik ki, dünyanın aparıcı filoloji universitetlərində bu sahə ilə bağlı dərsliklər və monoqrafiyalar dərc edildiyi, Asiya-Amerika ədəbiyyatı xüsusi bölmə kimi öyrənildiyi halda Emi Tan kimi maraqlı yazıçının ədəbi irsi araşdırma obyektinə çevrilməyib. Onun "Sevinc və uğur klubu" ("The Joy Luck Club", 1989), "Mətbəx allahının arvadı" ("The Kitchen God's Wife", 1991), "Yüz sirli hiss" ("The Hundred Secret Senses", 1995), "Sınıqçının qızı" ("The Bonesetter's Daughter", 2001) romanları müasir Amerika ədəbiyyatında milli kimlik və özümlülük, öz müqəddəratını müəyyən etmə problemləri ilə yanaşı multikulturalizmin birgəmövcudluq və tolerantlıq anlayışları ilə oxucu rəğbətini qazanmışdır. Amerikalı tədqiqatçı Kirsten Dinnall Hoyt tam haqlı olaraq yazırdı ki, *"Tan iki vətən arasında havada asılmış qalan çinli amerikalıların obrazlarını yaradır"*[16]. Həqiqətən də, onun personajları vətənindən didərgin düşmüş, yeni həyat arxasınca ABŞ-yə üz tutan mühacirlərdir. Görünür elə bu səbəbdən tədqiqatçı *"mühacir həyatı yaşayan çinlilər demək olar ki, yetimdirlər. Onlar hər biri öz keçmişlərini itirmiş yetimlərdir"* deyir. E.Tanın romanlarının təkrarlanan mövzuları da bunu təsdiqləyir.

**"Yeni milli-mədəni kimliyin formalaşması dövrünün Emi Tan yaradıcılığında bədii əksi"** adlanan II fəslin ilk paraqrafında

---

[15] Bloom, H. Amy Tan. / H.Bloom. – Infobase Publishing. – 2014. – 215 p.

[16] Hoyte, K.D. Contradiction and Culture: Revisiting Amy Tan's "Two Kinds"// Minnesota Review. – Duke University Press. Numbers 61-62, Spring-Summer. – 2004. – p.163.

***“Emi Tan yaradıcılığında şəxsiyyətin formalaşması prosesi: metafor mədəni kod kimi***” araşdırılır.

Yazıçının demək olar ki, bütün romanları Çin mifoloji düşüncəsi və folklor motivləri ilə bağlı olub çinli-amerikalının milli kimliyinin öyrənilməsində açar rolunda çıxış edir. “Mətbəx allahının arvadı” romanında Çin mifi metafora dönür, mifin yaddaşı milli adət və ənənələrin gətirdiyi problemləri ifadə edir. Yad ölkədə yaşayan, amma eyni zamanda da öz söy-kökünə bağlı olan ana övladlarına danışdığı “Mətbəx allahı” mifində çinli qadının ağrı və acılarını, əzablarını səsləndirir. Yazıçı Çin mif və nağıllarına müraciət edir, düşüncələrini metaforik tərzdə izah edir.

Milli-mədəni özünəməxsusluğu müəyyən edən metafor dil və təfəkkürün tərkib hissəsi kimi dünyanın dil mənzərəsini əks edir. Məlumdur ki, hər bir milli-mədəni dil daşıyıcısının ənənəvi assosiasiyaları mövcuddur və bu assosiasiyaların köməyi ilə o, eyni söz və əşyanı, hadisəni metaforik şəkildə yenidən dərk edə bilir. Bədii mətndə ifadə olunan belə koqnitiv metaforlardan birini E.Tanın “Yüz sirli hiss” romanında müəyyən etmək olar: *“My sister Kwan believes she has yin eyes”*[17]. Çin mifologiyası ilə bağlı “İn və Yan” anlayışları dini və mədəni dəyərləri özündə daşıyan metafor kimi qəhrəmanın daxili dünyasını ifadə edir.

“Sevinc və uğur klubu” romanındakı qu quşu metaforu əsərin mənasını açmağa yardımçı olur. İki nəsil arasında yaranan uçurumu təsvir edən yazıçı metaforik deyim tərzinə müraciət etməklə yaşlı qadının söy-kökündən uzaq düşən çinlinin faciəsini dilə gətirir. Əsərdəki Çin mifoloji təfəkkürünün dərinliyini hiss etdirən metaforlar qəhrəmanın daxili monoloquna aydınlıq gətirir.

Metaforik üslub E.Tan romanlarının xarakterik xüsusiyyətidir. “Sınıqçının qızı” romanında əgər əsərin adı birbaşa ananın söy-kökü ilə bağlı idisə, əsər inkişaf etdikcə onun qızı ilə əlaqələrinin bərpası, qızın isə öz növbəsində çinli kimliyini qəbul etməsini ifadə edir. “Sınıqçının qızı” mifi mənəvi-ruhani yaralarını sağalda bildikləri üçün həyatlarının “sınıqçı”larına çevrilən qadınların metaforuna

[17] Tan, A. The Hundred Secret Senses. / A.Tan. – London: Penguin Books. – 2019. – p.2

çevrilir. Çin düşüncə tərzi, Çin təfəkkürü təbiəti etibarilə assosiativdir və çinli daha çox obrazlı şəkildə düşünür.

"Sevinc və kədər klubu", "Mətbəx allahının arvadı", "Yüz sirli hiss", "Sınıqçının qızı" və digər romanlarında milli-mədəni kodun metaforlarla təsviri xüsusiyyətlərini əyani şəkildə görmək olur. Adı çəkilən hər bir əsərdə bəzi qəhrəmanlar doğum faktı ilə bağlı xüsusi keyfiyyətlərin və dəyərlərin daşıyıcıları olduqlarını tam aydın şəkildə başa düşür, öz milli-mədəni kimliyini qəbul edirlər. Onlar başa düşürlər ki, fərqli mədəni mühitdə doğulan və fərqli münasibətlərə və fərqli həyat anlayışlarına xas olan anaları onlara milli-mədəni dəyərləri ötürə biliblər. Əgər "Sevinc və uğur klubu"nda bu mədəni kod Çin əfsanəsindən gələn qu quşu metaforu ilə səciyyələnirsə, "Sınıqçının qızı"nda mənəvi-ruhani yaralarını sağalda bilən qadınlar öz həyatlarının "sınıqçı"larına çevrilən qadınları, "Mətbəx allahının arvadı" romanında isə Çin mifi kimi metaforun məna yükünü açır. "Yüz sirli hiss" romanına gəldikdə, bütövlüyü tamamlayan "İn və Yan" anlayışı mədəni dəyərləri özündə daşıyan metafor kimi qəhrəmanın qəlb dünyasına aydınlıq gətirir.

Elə bununla bağlı tam əminliklə demək olar ki, Emi Tan öz əsərlərində şəxsiyyətin formalaşması prosesinin təsvirində metaforların mədəni kod kimi istifadəsindən yararlanmışdır.

***"Mədəni hibridləşmə prosesi və harmoniyaya qayıdış Emi Tan yaradıcılığının spesifikası kimi"*** adlı paraqrafda qeyd edilir ki, müasir Asiya-Amerika nəsri ümumilikdə, hibrid mədəniyyətin problem dairəsi ilə bağlı romanlarla xarakterizə olur.

Çində doğulub böyüyən, lakin ABŞ-də yaşayan və öz ənənəvi mədəniyyəti ilə Qərb mədəniyyəti arasında qalan çinlilər Amerika-Çin ədəbiyyatının əsas mövzularını təşkil edir. Çin-Amerika bədii ədəbiyyatını öyrənən Pilar Domingesə görə *"Hibrid fərdlər, yəni etnik mənşəyi əsas istiqamətdən fərqli olanlar, təxminən müasir dövrün mədəni tendensiyalarına uyğun gəlsələr də, aralıq mövqeləri ilə ambivalent münasibətlərə uyğunlaşmalıdırlar. Bu, əlbəttə ki, Homi Babanın "hibridləşmə", "birləşmə" ideyasından qaynaqlanır və fərqlərin həll olunmayan bir bütövlüyə qarışması deməkdir"*[18].

[18] Dominguez, P.C., Lopes, S.V. The Many Faces of Hybridity in Chinese /American Fiction of the 1990s // Revista de Estudios Norteamericanos.

Milli-mədəni kimlik problemləri və çinli amerikan ailələrindəki nəsillərarası ziddiyyətlərdən yazan yazıçılardan biri də Emi Tandır. Onun "Sınıqçının qızı" ("The Bonesetter's Daughter") romanı Amerikada yaşayan çinli mühacirlərin ailəsində baş verən nəsillərarası problemlərdən bəhs edir. Ənənəvi Çini təcəssüm edən və Amerika həyat tərzinə yad olan ana və heç vaxt Çində olmayan və bu səbəbdən ona yad olan ənənəvi dəyələr ilə doğulub böyüdüyü Amerika reallığı arasında qalan qızın həyat hekayəsi əsərin əsasını təşkil edir. Ananın tarixçəsi xüsusi dildə, qırıq-kəsik ingilis dili ilə Çin dialektindən yaranmış xüsusi təhkiyə dili ilə nəql edilir. Bir çox tənqidçilər belə təsvir üsulunu gənc amerikalıların öz kimliyini qəbul edib, onunla barışığa gedən yol ilə izah edirlər[19].

Roman müxtəlif mədəni-tarixi hadisələrin fonunda üç qadının həyat hekayəsindən bəhs edir. Nənə feodal qayda-qanunları olan Çinə, ana yarı Çin, yarı Amerikaya, qız isə müasir Amerikaya aiddir. Əsərdəki kimlik axtarışını və bu yolda qarşılaşdığı maneələrin dəf edilməsini hər üç qadının həyatına təsir edən fakt kimi dəyərləndirmək olar. Hər üç qadın özgürlüyünü, kimliyini bərpa edib şəxsiyyət kimi öz sözü, səsi uğrunda mübarizə aparır. Asiya folklorundan gəlmə ruhlar aləminin köməkliyi ilə öz kimliyinə qovuşması motivi də bütün əsər boyu hər üç qadının həyatında izlənilir. Əcdadları ilə bağlılıq bütün hallarda güc-qüvvə şəklində problemləri adlamağa, kimliyini, öz daxili "mən"ini tapmağa yardım edir.

"Sınıqçının qızı" romanında amerikalı qızın ənənəvi Çin mədəniyyətini qəbul etmə prosesi çox çətin keçir, onun daxili sarsıntıları və kimlik axtarışları ilə müşayiət olunur. Sonda o, doğulub böyüdüyü Amerika mədəniyyətinə və mentalitetinə aid dəyərləri qəbul edir, amerikanlar kimi düşünür, fərd kimi mövcud olduğunu qəbul edir. Yaranan ilkin münaqişə sonralar öz milli-mədəni kimliyini, yarı çinli olduğunu qəbul etdikdən sonra başa çatır. Öz irsini, söy-kökünü və milli-mədəni kimliyini qəbul edən

---

Universidad de Huelva, – 2003. N 9, – p.23-38.

[19] Huntley, E.D. Amy Tan: A Critical Companion. Westport, Connecticut: Greenwood Press, – 1998. – 165 p.; Heung, M. Daughter-text / Mother-text: Matrilineage in Amy Tan's the Joy Luck Club //Feminist Studies. – 1993. Vol.19, #3. – p.597-616.

qəhrəman hüzur tapır, həyatının mənasını əldə edir. Beləliklə, qəhrəmanın "amerikan dünyagörüşü" genişlənərək Çin özəlliyini qəbul etməklə öz çinli kimliyini qazanır. mədəni hibridləşmə və harmoniyaya qayıdış problemi Emi Tan yaradıcılığının özəlliklərindən biridir. Belə təsvirdə hibridləşmə müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirinin nəticəsi kimi meydana gəlir və mədəniyyətlərarası əlaqə, başqa etnik qrupa münasibətin dəyişməsi, onun "yad" anlayışından "digər" anlayışına keçməsi ilə nəticələnir.

II fəslin üçüncü paraqrafında isə ***"Emi Tan yaradıcılığında milli kimlik və nəsillərarası problemlər mifik süjetlə paralellər müstəvisində"*** öyrənilir. Mif Emi Tan yaradıcılığında mənəvi və etik problemlərin, motiv və simvolların yaranmasında iştirak edən vacib elementlərdəndir. Mif vasitəsilə yazıçı milli kimlik məsələlərini vacib və əhəmiyyətli edir. Mifdən istifadə milli adət-ənənənin, etnik icmanın müəyyən inkişaf mərhələsinin təsvirində milli tarixin əhəmiyyətini daha da gücləndirir. Kurt Hyubnerə görə *"mifik təfəkkürün müxtəlif formaları müasir mənəvi-ruhi dünyamızda yaşamağa davam edir"*[20]. Elə bu səbəbdən Çin tarixi və mifologiyası E.Tanın romanında mətnaltı kimi çıxış edir. Mif mövzu və motivləri E.Tan romanlarında qadınlar arasındakı münasibətlərdə bağlayıcı funksiyanı daşıyır. Əgər ana üçün bu miflər keçmiş və yaddaşdırsa, qız üçün mədəniyyət, milli kimlik kimi dərk edilir.

Bir qayda olaraq mifik süjet və motivlər yazıçının romanlarında mənəvi və estetik kateqoriya kimi çıxış edir. "Mətbəx allahının arvadı" romanında Çin mifoloji süjet xətti öz ilkin mənasını dəyişərək əsərin sonunda müasir insanın çənbərinə düşür və yeni şəkildə üzə çıxır. E.Tan məlum mifi amerikalı çinlinin həyata və insanlara münasibətində dəyişir və ona yeni məna verir. K.Levi-Strosa görə *"mifdə əsas nə üslub, nədə təhkiyə formasıdır, mifdə əsas olan danışılan hekayədir"*[21]. Amerika həyat tərzi və mədəni dəyərlər kontekstində Çin mifi öz ilkin mənasını itirir. Çin mifologiyasından gələn mətbəx allahı anlayışı çinlinin öz vətəni ilə münasibətini itirdikdən sonra yenidən dərk edilir və nəticədə, ənənəvi Çin

[20] Хюбнер, К. Истина мифа. / К.Хюбнер. – М.: Республика, – 1996. – с. 6
[21] Леви-Строс, К. Структурная антропология / пер. с франц. – М.: Издво ЭКСМО-Пресс, – 2001. –с. 105

cəmiyyətindən daha çox müasir Amerikaya aid olur. Amerika, onun həyat tərzi, amerikalı anlayışı yeni mədəni kontekstdə yerləşdirilmiş çinlinin özünütəsdiq diskursdur. Elə bu səbəbdən Çin adət-ənənələri və mifik motivlər semiotik məkana çevrilir və amerikalı çinlinin milli kimliyini ifadə edir. Məhz bu halda Çinlə bağlı nə varsa mədəni kod kimi müxtəlif diskurslarda çıxış edir.

E.Tanın romanlarında ana və qızlar müxtəlif mədəni kontekstlərə yerləşdirilən Çin miflərini yenidən dəyərləndirirlər. Ana üçün Çin və onun mifoloji düşüncəsi yaddaş və ənənədirsə, heç bir zaman Çində olmayan övladlar üçün milli kimliyin axtarışına çevrilir. Başqa sözlə, Çin mədəniyyəti, onun mifologiyası semiotik koda çevrilir, mədəniyyət və milli kimliyi ifadə edir.

"Mətbəx allahının arvadı" romanında da Çin mifi milli kimliyi və milli adətləri yenidən canlandırır. Yad ölkədə yaşayan, amma eyni zamanda da öz söy-kökünə bağlı olan Vinni *"Burada mən öz faciəmi unuda bilərəm, heç vaxt, heç kimə aça bilmədiyim bütün sirlərimi qapı arxasında gizlədə bilərəm"*[22] deyir. Elə bu səbəbdən nəvələrinə danışdığı mifin süjetində ağrı və iztirab əsas motiv kimi bütün əsərin ideya-məzmunu ifadə edir. Vinninin nəvələrinə danışdığı mif yaddaş və milli adət-ənənəni daşıyır, amma eyni zamanda da ənənənin gətirdiyi problemlərdən də söz açır. Yazıçı mifik düşüncəni müasir dünyanın problemləri müstəvisinə çıxarır və elə bu şəkildə də milli kimliyi, öz keçmişi və mahiyyəti haqqında təsəvvürlər oyadır.

Beləliklə, görmək olur ki, mifik təfəkkürdən uzaqlaşma kimliyin sakral sferasının məhvinə gətirib çıxarır. Onun varlığını, mahiyyətini mənalandıran şərtləri dağıdır. Emi Tan qədim Çin mifini əsərində yenidən canlandırmaqla ona yeni məna verir, həyatın mənbəyi kimi təqdim edir. Dünyanın istənilən yerində qloballaşmanın hakimi mütləq olduğunu nəzər alaraq qeyd etməliyik ki, yazıçı şəxsiyyətin kimlik axtarışlarında sakral anlayışın mahiyyətini açmış, oxucusuna müəyyən mesajlar yolla bilmişdir. Yazıçı milli-mədəni kimlik problemini çoxmərhələli anlayış kimi təqdim edir və göstərir ki, mifik yaddaş onun formalaşmasında birbaşa rol oynayır. Mifik yaddaş milli-mədəni dəyərləri daşıyan

[22] Tan, A. The Kitchen God's Wife. / A.Tan. – London: Penguin Books. – 1991. –p. 58

kollektiv təsəvvürlərin bir hissəsidir. Ona görə də fərdin milli kimlik böhranında mifik yaddaş inanılmaz dəyərə malik olan sakral alimi əvəz edir.

**"Milli-mədəni kimlik Emi Tan romanlarının ideya-məzmun xüsusiyyətləri kimi"** adlanan III fəsildə ilk olaraq ***"Möcüzələr vadisi" romanında çinli qadınların faciəvi taleyinin əksi"*** təhlilə çəkilir.

E.Tanın qadın problemlərindən yazması, əsərlərini məhz bu problem ətrafında qurması türkiyəli tədqiqatçı Tanfer Tuncun da dediyi kimi *"Asiya mədəniyyətinin patriarxal zülmündən və "ağ" Amerika cəmiyyətinin irqçiliyindən xilas etmişdir"*[23]. Çinli qəhrəmanlarının simasında yazıçı Çində yaşayan qadınların acınacaqlı vəziyyətini dilə gətirir, onların ənənə və sosial normaların sərhədlərində mövcud olduğunu önə çəkir. İtaətkar və hüquqsuz qadın mövqeyini yazıçı qadının ənənədən qaynaqlanan ana və həyat yoldaşı rolu ilə bağlayır, lakin bu təsviri artıq kənardan, qərbli gözü ilə, başqa sözlə amerikan yazıçısı kimi "başqasının" nəzərləri ilə baxır.

Yazıçı qadının ailədə öz rolunu dərk etməsini, özünü reallaşdırmasını adətən qadın hüquqlarının müdafiəsi kimi təsvir edir. Demək olar ki, onun bütün yaradıcılığı qadının müasir cəmiyyətdə yeri, keçmiş və indi arasında qalan qadınların problemi, ana və qız arasında nəsillərarası münasibətlərlə təkrarlanan mövzularıdır. Onun əsərlərində çoxsaylı qadın obrazları və qadın həyatının təfərrüatları ilə yanaşı, süjet xətlərinin avtobioqrafik başlanğıcı da xarakterik xüsusiyyət kimi diqqəti cəlb edir.

E.Tanın romanlarında bir çox unikal və eyni zamanda tipik qadın obrazlarının gender stereotiplərindən fərdiləşməyə doğru hərəkəti səciyyəvidir. Görünür elə bu səbəbdən qadının həyatın ən ağır sınaqlarında güclü, dözümlü şəxsiyyət kimi çıxmasıyla bağlı mövzular onun əsərindən əsərinə adlayır. Bu tip qəhrəmanlar fərdi keyfiyyətlərinə görə seçilirlər. Onlar kütlədən fərqlənir və yalnız özlərinə xas xüsusiyyətlərə malikdirlər. Yazıçı məhz fərdləşdirilmiş çinli qadın obrazları vasitəsilə qadının necə olması barədə fikirlərini

---

[23] Tunc, T.E., Marino E. Positioning the New: Chinese American Literature and the Changing Image of the American Literary Canon. Newcastle-upon-Tyne: – Cambridge Scholars Publishing. – 2010. – 79 p.

nümayiş etdirir. Çinli qadınların ağır həyatından söz açan belə əsərlərdən biri də “Möcüzələr vadisi” (“The Valley of Amazement”, 2013) romanıdır. “Möcüzələr vadisi” romanı Şanxayın dəbdəbəli salonlarında kurtizan həyatı sürən və onun faciəsini yaşayan ana və qızın biri-birinə qarışmış həyat hekayəsindən ibarətdir. İki qitədə qırx ili əhatə edən “Möcüzələr vadisi” Çinin tarixində iz buraxan əsas məqamları işıqlandırır. Çinin sonuncu imperator sülaləsinin sona yetməsindən Çin respublikasının yaranmasına qədər bir dövrü əhatə edən əsər kurtizan qadınlarının acı taleyini, qadın olmaq “yükünü” açıqlayır.

E.Tan faciəvi həyat yaşayan, sonda isə mənəvi və fiziki ağrılara tab gətirməyən qadın intiharlarına da yer verir. Qəhrəmanın acı həyat hekayəsini nəql edir, onun da xəyanətlərlə, itkilərlə üzləşdiyini göstərir E.Tan romanlarında qadının seçim imkanların məhdudluğundan, hüquqların yoxluğundan və qadın-kişi məsələlərində gender bərabərsizliyini önə çəkir, qədim ənənələrdən gələn stereotiplərin qadın müqəddəratının həllində əsas mane kimi təqdim edir.

“Möcüzələr vadisi” romanındakı Lulu Mintern, Vayolet, Flora və digər qadın personajlar yüksək dəyərlərə və mənəvi gücə sahib olduqlarına görə oxucu sevgisinə səbəb olurlar. Onlar çalışqanlığı, işgüzarlığı, möhkəm iradəsi ilə seçilirlər. Yazıçı bu qadın obrazları ilə ənənəvi çinli qadınlar arasında bağlılıq yaratmaqla bərabər, onların hər birindən özgüvən hissini əsirgəmir. Mətanətli və əzmkar, müdrik və tədbirli, son dərəcə qayğıkeş qadın obrazları onun personajlarının malik olduğu xüsusiyyətlərdir.

E.Tanın “Möcüzələr vadisi” romanı min illərlə Çin qadınının gündəlik həyat gerçəkliyini gizlədən reallığı təqdim edir. Məhz bu əsərdə iki qadın tipi yanaşı addımlayır və çinli qadının həm ana, həm də kurtizan qadın obrazında önə çıxır. Yazıçı bu qadınları iki müxtəlif obrazda deyil, bir nəfərin şəxsində təqdim edir. Ədəbi tənqid də bu məqamı vurğulayaraq yazıçını XX əsrin ən yaxşı romançısı, qadın obrazlarının bənzərsizliyi ilə əlaqələndirir[24]. Edelma Hantli yazır ki, E.Tan qadın olduğuna görə çinli qadınları

[24] Huntley, E.D. Amy Tan: A Critical Companion. / E.D.Huntley. – Westport, Connecticut: Greenwood Press, – 1998. – 37 p.

daha yaxşı başa düşür. E.Tan isə anasının onun ən məşəqqətli qadın obrazlarının prototipi olmasını[25], Çindəki gender bərabərsizliyini bütün gerçəkliyi ilə dərk etdiyini, Amerika cəmiyyətində çinli qadının nə qədər güclü olduğunu qeyd edir.

İkinci paraqrafda isə ***"Sevinc və uğur klubu" romanında analar və qızlar problemi"*** öyrənilir.

Müasir Çin ədəbiyyatında qadın-ana haqqında tarixən formalaşmış ənənəvi mədəni və genetik əlaqələrinin mövcudluğu danılmaz faktdır. Çin mədəniyyətindən gəlmə spesifik milli xüsusiyyətlərlə izah edilən ana obrazı bir qayda olaraq əzmkar, zülmə tabe, analıq haqqını müqəddəs tutan qadın personajları ilə ifadə edilir.

Şübhəsiz bu sırada E.Tan yaradıcılığı da xüsusi yerlərdən birini tutur. Onun istənilən əsərində analar və qızlar problemi öz əksini tapır. Yazıçının 1989-cu ildə qələmə aldığı "Sevinc və uğur klubu" (The Joy Luck Club) romanı iki nəsil arasında yaranan qarşıdurmanı fərdin faciəsi kontekstində əks edir. Emi Tan çinli mühacirlərin ikili mədəni kimliyindən bəhs edən, analar və qızlar münasibətlərindən doğan ailə münaqişələrini canlandırır. Bir çox tədqiqatçılar yazıçının öz müsahibələrinə əsaslanaraq onun şəxsi təcrübələrinin əsərlərinin süjet xəttinə daxil edilməsindən yazır, onun da anası ilə gərgin münasibətlərinin olduğunu qeyd edirlər[26]. "Sevinc və uğur klubu" romanın qəhrəmanı kimi yazıçı da anasının keçmişini bildikdən sonra münasibətlərinin bərpa olduğunu səsləndirmişdir. Romanın qəhrəmanı Sin Mey də anasının ölümündən sonra onun hansı ağrılardan keçdiyini tam anlayır və onu bağışlayır. Analar öz çinli keçmişlərindən ayrılmadıqları kimi oxucu tədricən qızların da kimlik axtarışlarında həyat çətinlikləri ilə üzləşdiklərinin şahidi olur. Yazıçı anaların keçmişində qızların bu gününü təqdim edir və keçmiş simvol şəklində bu günün reallığı kimi çıxış edir. Ana və qızları arasındakı anlaşılmazlıq eyni dildə danışa bilməmələrinə səbəb

[25] Tan, A. interview: 'We are descended from incredibly fierce women'. // The Guardian. 10 Nov 2013 https://www.theguardian.com/books/2013-/nov/10/amy-tan-interview-valley-amazement

[26] Liu, Y. Interpretation of the Mother-Daughter Relationship in the Joy Luck Club from the Perspective of Transitivity System // English Literature and Language Review. June – 2019. – 97 p.

olduğu üçün çox vaxt yaşlı nəslin nümayəndələri öz həyat tarixçələrini danışır və beləcə ünsiyyət qurmağa çalışırlar. Onların danışdıqları əhvalatlar adətən maarifləndirici xarakter daşıyır və bu şəkildə keçmişdə buraxdıqları səhvlərdən nəticə çıxarmağı tövsiyə edirlər. Keçmişdə baş verən hadisələrin nəqli sevgi və qürur hissini çatdırmaq, öz daxili "mən"ini tapmaq və milli kimliyini əldə etməyin bir yolu idi. Digər tərəfdən analar belə hesab edirlər ki, qızlar onların çinli keçmişini xatırlamaqla öz əcdadlarını unutmayacaq, onlar isə bu xatirələrdə yaşamaqla milli kimliyi qoruyub saxlayacaqlar.

Amerikada doğulan qızlar görünüşcə çinli olsalar da daha çox amerikandırlar. Uşaqlıqdan Çin irsini rədd edən, Amerika həyat tərzini seçən qızlar yaşlı analarının keçmişindən utanır, onlarla səbirsiz davranırlar. Lakin paradoks ondadır ki, gənc qızlar amerikanlaşmağa can atsalar da, onu aydın şəkildə təsəvvür edə bilmirlər. Elə bu səbəbdən qızlar çox vaxt həyatlarından məmnun deyil, bəzən bədbəxt, bəzən isə anaları ilə müqayisədə özlərini uğursuz və bacarıqsız hiss edirlər.

Yazıçı analar və qızlar problemi ilə gender rollarının yenidən nəzərdən keçirilməsinə, yeni tip qadın şüurunun formalaşmasına, etik və estetik münasibətlərin qarşılıqlı əlaqəsinə, tolerantlıq və humanizm məsələlərinə toxunur. Sadaladığımız bu xüsusiyyətlər E.Tanın "Sevinc və uğur klubu" romanının bədii məziyyətləridir. Yazıçı məhz bu əsərində ana və qız qarşıdurmasını fərdin formalaşmasına təsir edən amil kimi önə çəkir.

Onu da qeyd etməliyik ki, milli-kimliyin formalaşması prosesini yazıçı müxtəlif baxış bucaqlarından nəzərdən keçirir. Əgər fərdin formalaşmasına təsir edən amillərdən biri yaşadığı mühit, onun cəmiyyətlə qarşılıqlı əlaqəsidirsə, ikinci amil fərdin keçmişdən qopması, öz milli mədəni irsinə etinasız yanaşmasında özünü göstərir. Başqa sözlə, E.Tan ideoloji-mənəvi problemləri sosial-mədəni kontekstdə həll edir. Onun qaldırdığı analar və qızlar problemi ənənəvi sistemin tənqidi, hər şeyə qadir ana mifinin təkzib edilməsi və birgəmövcudluq şəraitində qarşıdurma kimi deyil, biri-birini qəbul edib yanaşı yaşamaqla səciyyələnir.

III fəslin sonuncu paraqrafı isə ***"Yüz sirli hiss" romanında "özününkü" və "özgə" dixotomiyası çinli və amerikalı obrazında"***

adı altında öyrənilir. Bizim mədəniyyətimiz "özününkü" müstəvisində ən müsbət keyfiyyətləri birləşdirən məhrəm dəyərləri əhatə etsə də "başqa" mədəniyyət qəribə və bəzən də anlaşılmaz, qəbuledilməz kimi səslənir. "Özününkü" çox vaxt özəl və dəyərli, "özgə" isə anlaşılmaz və "yad" kimi görünür. "Biz" və "onlar" və ya "özününkü" və "özgə" anlayışları etnomərkəzçilikdə milli təəssübkeşliyin daha üstün olması ilə bağlı olsa da, burada bir vacib məqamı da qeyd etmək yerinə düşər: digər xalqları öz mədəniyyətindən və görmə bucağından şərh etmək və dəyərləndirmək istəyi. Bu səbəbdən "özününkü" və "özgə" konseptləri bir-biri ilə bağlı anlayışlardır və xalqların özünüdərk və öz müqəddəratını həll etmə mərhələlərində vacib rola malikdirlər. Çinli və amerikalı stereotiplərdə özünü "biz"lərə və "başqaları"na ayırmaq istəyi eyni dərəcədə görünür.

Öz milli əlamətlərini və eyni zamanda da milli keyfiyyətlərini "yerlilərdən" ayırmaq, yerlilərin isə çinlilərə "gəlmə" göz ilə baxmaları mədəni və siyasi sərhədləri cızdı. "Biz" və "özgə" konsepti "başqası"nı anlayıb başa düşməyin əsas yolu olsa da, daha çox özgələşmənin, stereotiplərin yayılmasının əsasını təşkil etdi. Emi Tanın yaradıcılığında əksini tapan Şərq və Qərb, Çin və Amerika yorumları müasirlərinin dominant oriyentalizmindən xilas oldu. Onun romanlarında Şərq-Qərb münasibətləri bir-birlərindən üstün və ya fərqli şəkildə deyil, əksinə paralel şəkildə, öz koordinatlarında mövcuddur. Mədəniyyətlərin qarşılıqlı əlaqəsi Emi Tanın roman yaradıcılığında yalnız müstəqil kəsişmələri ilə və ya oxşarlığı ilə deyil, fərqliliyi ilə qiymətlidir. "Özününkü" və "özgə" arasında qarşılıqlı əlaqələr artıq "bizim" "onlarla" iç-içə keçmə prosesinə yol açdı, bu iki konseptin qarşılıqlı mübadiləsi ilə nəticələndi. Onun romanlarındakı Şərq və Qərb dünyalarının toqquşduğu situasiyalarda yaxınlaşma, anlaşma və "başqasını" dərk etmə kimi vacib məqamlar özünü büruzə verdi. Bu romanların özəlliyi ondadır ki, artıq proses qarşıdurma şəklində deyil, "özgə" mədəni kodların "özününkü"ləşməsi və oriyentalizm ədəbiyyatına xas statik Çin deyil, "özününkü", tanış və daima dəyişən kimi görünür. Amerikada yaşayan çinli mühacirlər haqqında yazan Emi Tan həmçinin kimlik axtarışları və bu yolda özümlülük əldə edən çinlidən bəhs edirdi. Amma bütün hallarda yazıçı Amerika demokratiyasına sığınan və öz gələcəyini bu

torpaqda təsəvvür edən “gəlmə”ləri iki mədəniyyətin daşıyıcısı obrazında təsvir edir. “Yüz sirli hiss” romanın qəhrəmanları da iki mədəniyyətin daşıyıcıları kimi çıxış edirlər. Olivia Amerika cəmiyyətinə assimilyasiya olan və dünyaya Qərb düşüncələri ilə baxan, Çindən gələn Quan isə Amerikada yaşamasına baxmayaraq ingilis dilində düz-əməlli danışa bilməyən, yalnız əcdadlarının ruhları ilə danışan şərqli kimi təqdim edilir. Görünən odur ki, Emi Tan Şərqlə Qərbin, materiya ilə ruhun, rasionalizmlə intuisiyanın qarşıdurmasında Amerika ilə Çini iki müxtəlif qütblər kimi göstərsə də, heç bir halda haqlı və haqsızın, zülmət və işığın tərəfini tutmur və bu şəkildə seçimi oxucuya buraxır. Emi Tan oxucunu Çin mədəniyyətinə, mənəvi-ruhani aləminə cəlb etməklə “özgə”ni dərk etməyə və anlamağa imkan yaradır və beləcə, “özünü” – Amerikada doğulan və həyat sürən çinlini qərblinin qavrayışı ilə dərk etməyə yol açır. Əsərin qəhrəmanı Olivia dünyaya bütöv şəkildə baxan, iki dünyanı qəbul edib yaşayan, başqa yaşayış formalarını qəbul edən “özgə”nin də olduğu dünyanı özününküləşdirir və beləcə, öz kimliyini tapır.

“Emi Tan yaradıcılığında milli-mədəni kimlik axtarışları” adlı dissertasiya işində aparılmış tədqiqat zamanı aşağıdakı **nəticələr** əldə edilmişdir:

1. Milli-mədəni kimlik probleminin öyrənilməsində bu qənaətə gəlmək olur ki, mədəniyyət həm mental, həm də məişət səviyyəsində bu və ya digər millətin birləşdirici halqası, onun özgüvəni və dayaq nöqtəsidir. Milli-mədəni kimliyin məhvi isə milləti, deməli, milli dəyərləri məhv etməkdir. Ona görə multikulturalizmin bir qolu olan multikultural ədəbiyyat milli-mədəni kimliklərinin qorunmasına yönəlmiş mədəni hadisədir. Multikultural toplumda milli-mədəni kimlik anlayışı bu toplumda yaşayan müxtəlif xalqların birgəmöv-cudluğunu, bərabərhüquqlu yaşayışını təmin edir.

2. ABŞ ədəbiyyatında milli-mədəni kimliyin və milli şüurun yaranması məsələləri burada yaşayan çoxsaylı xalqların ədəbiyyatı ilə yanaşı, Asiya-Amerika əsilli yazıçıların ədəbi nümunələri ilə müəyyənləşir. Asiya-Amerika ədəbiyyatı Suy Sin Far, Frenk Çin, Çin Yan Li, və Emi Tanın əsərlərinin dolğun ifadə etməsi ilə şərtlənir. Çin əsilli yazıçılar ədəbi prosesin periferiyalarında deyil,

milli ədəbiyyatdan kənara çıxaraq ABŞ ədəbi prosesini müəyyən edir. Onların əsərlərində milli-mədəni kimlik problemi mən kiməm sualına cavab arayışı kimi aşkarlanır və bu sual "iki mədəniyyətin daşıyıcıyam" cavab ilə nəticələnir.

3. E.Tan yaradıcılığında milli-mədəni kimlik probleminin ilkin araşdırılması vəziyyətinin öyrənilməsi bu nəticəyə gəlməyə əsas verir ki, Asiya-Amerika ədəbiyyatının görünməmiş çiçəklənməsi Emi Tanın "Sevinc və uğur klubu" romanından sonra müəyyən edilir. Çin mədəni dəyərləri onun romanlarının göstəricisi, amerikalı çinlilərin həyat tərzi, həyata baxışları, öz müqəddəratının həlli yolları ilə izlənilir. Ədəbi tənqid onu etnik çərçivələrdən çıxan və yeni ədəbi istiqamətin yaradıcısı, yeni transmədəni hadisələrin mahiyyətini açan müəllif kimi dəyərləndirir, Çin milli dəyərləri ilə Amerika mədəniyyətini birləşdirən yazıçı kimi təqdim edir.

4. Metaforik üslub E.Tan romanlarının xarakterik xüsusiyyətidir. O, bədii təsviri metaforlara müraciət etməklə ortaya qoyur və istənilən əsərində metafor ideya, bədii-estetik xüsusiyyət kimi aşkarlanır. "Sınıqçının qızı" romanında qəhrəmanların mənəvi yaralarını sağaldan, həyatlın "sınıqçı"sına çevrilən qadınların metaforu kimi müəyyənləşir. "Mətbəx allahının arvadı" romanında isə mifin yaddaşı milli adət və ənənələrin gətirdiyi problemləri ifadə edir, mif müasir dünyanın problemləri müstəvisində yenidən dərk edilir, qadınların ağrı və acılarını, əzablarını yeni şərtlər daxilində dəyişə bilmək gücünü ortaya qoyur.

5. Mədəni hibridləşmə prosesi E.Tan romanlarında müxtəlif və bəzən də bir-birinə bənzəməyən mədəniyyətlərin bir-birinə nüfuz etməsi kimi müəyyən edilir. E.Tanın "Sınıqçının qızı" romanı ənənəvi Çini təcəssüm edən və Amerika həyat tərzinə yad olan ana və Çində olmayan, bu səbəbdən böyüdüyü Amerika reallığı ilə öz milli kökləri arasında qalan yeni nəslin problemləri kimi aşkarlanır. Personajların ikili statusu yeni mədəni dəyərlərin yaranmasına şərait yaradır. Doğulub böyüdüyü Amerika mədəniyyətinə aid dəyərləri saxlamaqla, E.Tan qəhrəmanları bir fərd kimi hibrid mədəniyyətin daşıyıcısı kimi özünü qəbul edir, öz milli-mədəni xüsusiyyətlərini Qərb "mədəni kodu" ilə birləşdirən yeni kimlik modelini yaradırlar.

6. Emi Tan yaradıcılığında milli kimlik və nəsillərarası problemlər mifik süjetlə paralellər müstəvisində öyrənilməsi onu deməyə əsas verir ki, bu tip əsərlərdə tarix mifə çevrilir və mədəni yaddaş kimi yenidən dərk edilir.

"Mətbəx allahının arvadı" romanında Çin mifik süjeti öz ilkin mənasını dəyişir və müasir insanın problemlərini yeni şəkildə ortaya qoyur. Amerika həyat tərzi və mədəni dəyərlər kontekstində Çin mifi öz ilkin mənasını itirir. Qədim mətbəx allahı anlayışı yenidən dərk edilir, müasir Amerikaya köçürülür. Çin mifi semiotik məkana çevrilir və amerikalı çinlinin milli kimliyini ifadə edir. Böyük nəsil üçün yaddaş və ənənə, yeni nəslin nümayəndəsi üçünsə milli kimliyin axtarışına çevrilir.

7. E.Tanın romanlarında tipik qadın obrazlarının gender stereotiplərindən fərdiləşməyə doğru hərəkəti səciyyəvidir. Qadının ən ağır sınaqlarında güclü və dözümlü şəxsiyyət kimi çıxması ilə bağlı mövzular onun yaradıcılığının ideya-tematik problemlərini təşkil edir. E.Tanın yaradıcılığında donuq tabuları, stereotipləri daşıyan tipik qadın obrazları qərbləşmədən qaçan, öz söy-kökü ilə bağlı ənənələri qoruyan qadın obrazlarının iştirakı ilə izlənilir. Onun əsərlərində faciəvi həyat yaşayan, mənəvi və fiziki ağrılara tab gətirməyən qadın intiharları da yox deyil. "Möcüzələr vadisi" romanının qəhrəmanları alqı-satqı obyektinə çevrilir, amma mənəvi güclərini itirmir və yeni qadın obrazları ilə önə çıxırlar.

8. E.Tanın yaradıcılığında analar və qızlar mövzusu xüsusi yerlərdən birini tutur. "Sevinc və uğur klubu" romanında çinli qadınların amerikalı olmaq, yeni həyata alışmaq kimi cəhdləri mürəkkəb həyat şərtləri ilə müəyyənləşir. Yerli olmaq istəyi Amerikaya köçən çinlinin həyat mücadiləsinə çevrilir. Bu həyat "döyüşündə" ən əzablı yol övladları ilə mənəvi bağların qırılması və iki dünya arşında qalan insan faciəsi kimi aktuallaşır. Əsərdə qaldırılan problemlər ənənəni, milli kimliyini bütün qüvvəsi ilə qoruyan və mili-mədəni dəyərləri özündə daşıyan çinli ana və Qərb həyat tərzini qəbul edib yaşayan övladlar arasında yaranan anlaşılmazlıq və bu anlaşılmazlıqdan doğan münaqişə kimi aşkarlanır.

9. E.Tanın yaradıcılığında Şərq-Qərb münasibətləri biri-birindən üstün və ya fərqli şəkildə deyil, əksinə paralel, mədəniyyətlərin qarşılıqlı əlaqəsi şəklində aşkarlanır. “Özününkü” və “özgə” arasında qarşılıqlı əlaqələr belə əsərlərdə “bizim” “onlarla” iç-içə, birgəmövcudluq şəraitində qarşılıqlı mübadiləylə nəticələnir. “Yüz sirli hiss”in qəhrəmanının “özgə” Amerikadakı həyatı ona “uzaq”, amma “özününkü” olan Çini dəyərləndirməyə və olduğu kimi qəbul etməyə yol açır. E.Tan Çin mədəniyyətini, milli-mədəni dəyərlərini əks etməklə, “özgə”ni dərk etməyə şərait yaratdığı kimi, “özünü” – qərblinin qavrayışı ilə dərk etməyə imkan yaradır. Eyni zamanda da iki dünyanı qəbul edib yaşayan, başqa yaşayış formalarını qəbul edən “özgə”nin də varlığını önə çəkir.

*Tədqiqat işinin əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:*


1. Emi Tanın “Sınıqçının qızı” romanında milli-mədəni kimlik problemi. // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2020. X cild, № 3, – s.111-117.
2. “Sevinc və uğur klubu” romanında identiklik axtarışları milli özünüdərk kimi // – Bakı: BSU, “Elmi əsərlər”. Dil və ədəbiyyat seriyası, – 2021. № 2, – s.108-114.
3. Emi Tan yaradıcılığında multikultural dəyərlər yeni dünya modeli kimi // Doktorantların və gənc tədqiqatçıların XXIV Respublika Elmi Konfransının materialları. – Bakı: Azərbaycan Texniki Universiteti, – 23-24 noyabr, – 2021, – s. 310-311.
4. Emi Tanın “Yüz sirli hiss” romanında “Özününkü” və “Özgə” konsepti (İmaqologiya problemləri əsasında) // – Bakı: Azərbaycan Universiteti, “İpək yolu”, – 2022. № 2, – s.144-149.
5. Emi Tan yaradıcılığı ədəbi tənqiddə // Gənc tədqiqatçıların V Respublika elmi-praktik konfransı. – Bakı: Azərbaycan Universiteti, – 15 aprel, – 2022, – s.101-103.
6. The deconstruction of myth like the search for identity (Based on Amy Tan’s novel “The Kitchen God's Wife”) // – Poland: International Journal of Innovative Technologies in Social Science, – 2022. No 4(36), – p.1-5.

7. Multikultural ədəbiyyatda milli-mədəni kimlik problemi və onun elmi-nəzəri əsasları // – Bakı: Bakı Dövlət Universiteti. Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), – 2022. № 3(120), – s.216-219.
8. Artistic reflection of women's problem in A.Tan's creativity // "Foundations and Trends in Modern Learning" 1st International Scientific Conference. – Berlin, Germany, – 12-13 January, – 2023, – p.205-208.
9. E.Tanın romanlarında dil mədəni kod kimi (Multikulturalizmin problemləri müstəvisində) // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfrans. – Bakı: ADU, – 14 iyun, – 2023, – s.119-120.
10. The Search for national identity in amy Tan's Creativity // LV International Scientific and Practical Conference "Advances in science and technology". – Russia, Moscow, – 15 September, – 2023, – p.117-120.

Dissertasiyanın müdafiəsi 10 oktyabr 2024-cü il tarixində saat 10:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 05 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.09.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 45429 işarə

Tiraj: 100 nüsxə